UOT 327

ŞAHİSMAYIL İSMAYILOV
Azərbaycan Dillər Universiteti,
Azərbaycan Universiteti,
tarix üzrə fəlsəfə doktoru, dosent
ismayılovsahismayıl@gmail.com

TÜRK BİRLİYİ TƏŞKİLATLARININ YARADILMASI VƏ İNKİŞAF İSTİQAMƏTLƏRİ

DOI: https://doi.org/10.36719/2708-065X/109/92-96

Bu məqalə Türk Dövlətləri Təşkilatının tarixi əsaslarını, formalaşma prosesini və gələcək inkişaf perspektivlərini araşdırır. Sovet İttifaqının dağılmasından sonra türk dövlətlərinin əməkdaşlıq və inteqrasiya cəhdləri sürətlənmiş və 2009-cu ildə Naxçıvan Sazişi əsasında Türk Şurası (indiki Türk Dövlətləri Təşkilatı) yaradılmışdır. Məqalədə təşkilatın əsas məqsədləri, regional və qlobal geosiyasi proseslərdəki rolu və üzv dövlətlər arasında siyasi, iqtisadi və mədəni əməkdaşlığın əhəmiyyəti vurğulanır. Gələcək perspektivlər baxımından təşkilatın güclənməsi üçün qarşılıqlı maraqların balanslaşdırılması və ortaq iqtisadi layihələrin həyata keçirilməsinin vacibliyi qeyd olunur.

Açar sözlər: türk dövlətləri təşkilatı, regional inteqrasiya, geosiyasi əməkdaşlıq, mədəni və iqtisadi əlaqələr, strateji tərəfdaşlıq.

Giriş. Bu gün dünyada gərgin geosiyasi proseslər gedir. Müxtəlif regionlarda güc balansı, eləcə də münaqişənin xarakteri sürətlə dəyişir. Xüsusilə, yeni perspektivli əməkdaşlıq formatları yaranır. Dövlətlər arasında əməkdaşlıq ölkələrin demokratik və siyasi sabitliyinin möhkəmləndirilməsinə, onların iqtisadi, ekoloji, mədəni və sosial inkişafına mühüm töhfə verir. Artan beynəlxalq siyasi və sosial ziddiyyətlərin həllinə kömək edə biləcək konsepsiyalardan biri də dövlətlərarası əməkdaşlıq nəzəriyyəsidir [6, c.170].

Türk dövlətləri arasında birliyin yaradılması tarixi, mədəni və geosiyasi faktorların təsiri altında formalaşan əhəmiyyətli proseslərdən biridir. Bu proseslər, xüsusilə sovet imperiyasının dağılmasından sonra daha da sürətlənmiş və türk dünyasının ortaq maraqlar ətrafında birləşməsi təbii bir addım olaraq qəbul edilmişdir. Tarixən ortaq dil, din mədəniyyət və ənənələrlə bağlı olan türk xalqları, XX əsrin sonlarında müstəqillik qazandıqdan sonra inteqrasiya proseslərini sürətləndirməyə başlamışdır. Türk Birliyi təşkilatları türkdilli dövlətlər və xalqlar arasında siyasi, iqtisadi, mədəni və hərbi əlaqələri möhkəmləndirmək məqsədilə yaradılmışdır. Bu təşkilatlar ortaq tarixi, etnik və dil bağlılığı əsasında təşəkkül tapmış və zamanla daha da inkişaf etməkdədir. Bu məqalədə Türk birliyinin formalaşması tarixi, təşkilatların inkişaf istiqamətləri və gələcək perspektivləri araşdırılacaqdır. Türk dünyasının birləşməsi yalnız iqtisadi və siyasi maraqlarla məhdudlaşmır, eyni zamanda ortaq mədəni irsin qorunması və inkişaf etdirilməsi baxımından da böyük əhəmiyyət kəsb edir.

TÜRKSOY qurulduğu gündən bəri türk xalqlarının könül birliyini və qardaşlığını gücləndirmək, ortaq türk mədəniyyətini gələcək nəsillərə ötürmək və dünyaya tanıtmaq üçün müxtəlif fəaliyyətlər həyata keçirir. Türk dünyası ilə qlobal mədəniyyətin mədəniyyət və incəsənət sahələri arasında daimi və qalıcı ənənənin formalaşmasına töhfə verən TÜRKSOY-un fəaliyyəti, quruluşundan bəri üzv dövlətlərin rəhbərlərinin himayəsində davam etdirilmişdir. Hətta İstanbulda keçirilən Türk Dövlətləri Təşkilatının zirvə toplantısında (2001) dövlət başçıları təşkilatın fəaliyyətini hər zaman təşviq edəcəklərini rəsmi olaraq bir daha bəyan etmişdilər. [3, s. 224] TÜRKSOY-un bu fəaliyyəti türk xalqlarının ortaq mədəni irsinin qorunması və inkişaf etdirilməsi baxımından mühüm əhəmiyyət daşıyır. Türk dövlətləri arasında mədəni inteqrasiyanın güclənməsi, gələcək nəsillərin milli kimliyini qorumasına və zəngin türk mədəniyyətinin dünyada tanınmasına töhfə verir.

Türk dövlətləri arasında əməkdaşlığı gücləndirmək məqsədilə 1992-ci ildən etibarən keçirilən Türk Dövlət Başçılarının Zirvə Toplantıları 2009-cu ildə Türk Şurasının yaradılması ilə institusional

çərçivəyə salınıb. Azərbaycan, Qazaxıstan, Qırğızıstan və Türkiyə təşkilatın qurucu üzvləridir. 2019-cu ildə Özbəkistan tamhüquqlu üzv, Macarıstan isə müşahidəçi statusu əldə edib [5, s.22].

Türk Şurası, Türkiyə və Türk dili danışan ölkələr arasındakı çoxşaxəli əlaqələrin ən mühüm təzahürlərindən biridir. Türk Şurasının təsis olunmasına qədər çoxsaylı zirvə görüşləri keçirilmiş və Türk Dünyasında əməkdaşlığın təməli atılmışdır. Türk Şurasından əvvəl Türkiyə, Qazaxıstan, Azərbaycan, Qırğızıstan, Türkmənistan və Özbəkistan arasında münasibətlərin əsasını təşkil edən 10 zirvə görüşü baş tutmuşdur. 1992-ci ildə Turgut Özalın ev sahibliyi etdiyi və Ankara Bəyannaməsinin imzalanması ilə yekunlaşan zirvə görüşü ilə başlayan bu diplomatik proses 2010-cu ilə qədər davam etmişdir. 1992-ci ildə keçirilən ilk zirvə toplantısında Türk Dünyasının dövlət başçıları – Əbülfəz Elçibəy, Nursultan Nazarbayev, Askar Akayev, İslam Kərimov və Saparmurad Niyazov iştirak etmişlər. Yüksək səviyyəli iştirakı olan bu zirvə görüşündə Türk dili danışan ölkələr arasında əməkdaşlıq imkanları müzakirə edilmiş, tərəflər arasında ortaq investisiya və iqtisadi əməkdaşlıq variantları dəyərləndirilmiş, dünya iqtisadiyyatına inteqrasiya məsələləri nəzərdən keçirilmişdir. Bu zirvə görüşü ilə başlayan proses ardıcıl olaraq 1994-İstanbul, 1995-Bişkek, 1996-Daşkənd, 1998-Astana, 2000-Bakı, 2001-İstanbul, 2006-Antalya, 2009-Naxçıvan və 2010-İstanbul zirvə görüşləri ilə davam etmişdir [1, s.477].

2009-cu ilin oktyabrın 2-3-də türkdilli ölkələrin dövlət başçılarının Naxçıvanda baş tutan IX sammitində imzalanan müqaviləyə əsasən, Türk Şurası adlanan daimi katiblik quruldu. Müqavilə şərtlərinə görə, Türk Şurasının təşkilati mərkəzi İstanbul, akademik mərkəzi Qazaxıstan, parlament mərkəzi (TÜRKPA) isə Bakı oldu və TÜRKSOY birbaşa bu şuraya daxil edildi [2, s.133].

SSRİ-nin dağılmasından sonra keçmiş sovet coğrafiyasında regional əməkdaşlığa yönəlmiş bir çox təşəbbüslər həyata keçirilib. Lakin bu təşəbbüslərin əksəriyyəti uğursuz olmuş və qısaömürlü olduğu üçün həmin coğrafiya bəzən "regional təşkilatlar məzarlığı" kimi xarakterizə edilib. Türk dövlətləri arasında xüsusilə Qazaxıstan və Qırğızıstan regionda aparıcı güclərin təşəbbüsləri ilə formalaşan bütün əməkdaşlıq proseslərinə qoşulublar. Buna baxmayaraq, Türkiyənin təşəbbüsü ilə yaradılmış Türk Dövlətləri Təşkilatı (Türk Şurası) digər regional strukturlardan fərqli olaraq sabit və ardıcıl inkişaf xətti nümayiş etdirir [5, s.15]. SSRİ-nin dağılmasından sonrakı illər ərzində Avrasiya məkanında Türk dövlətlərinin gələcəyini formalaşdıran əsas üç regional əməkdaşlıq təşəbbüsü mövcuddur: Türk Şurası, Avrasiya İqtisadi Birliyi və Şanxay Əməkdaşlıq Təşkilatı (ŞƏT). Çin Avrasiya üçün hazırladığı "İpək Yolu İqtisadi Kəməri" strategiyası çərçivəsində həm Avrasiya İqtisadi Birliyi, həm də Türk Şurasını öz planlarının tamamlayıcı elementi kimi görür. Rusiyanın Avrasiya İqtisadi Birliyinin əhəmiyyətini izah edərkən əsaslandırdığı əsas məqam Çinlə Avropa arasında vahid gömrük məkanının yaradılmasıdır. Digər tərəfdən, Türk Şurası "Orta Dəhliz" adlandırılan nəqliyyat marşrutu vasitəsilə Pekin və London arasında fasiləsiz dəmir yolu əlaqəsinin qurulmasını təşviq edir. Gömrük birliyinin olması dezavantaj sayılsa da, Orta Dəhliz vasitəsilə ticarət əlaqələri tədricən güclənir.

2016-cı ildə Özbəkistanda baş verən hakimiyyət dəyişikliyi regional əməkdaşlıq prosesinin yenidən canlanmasına səbəb olub. 2018-ci ildən etibarən Orta Asiya dövlət başçıları ekoloji problemlərin həlli və sərhəd ticarətinin inkişafı kimi məsələləri müzakirə etmək üçün mütəmadi zirvə toplantıları keçirirlər. Prezident Şövkət Mirziyoyevin daha açıq və çoxtərəfli xarici siyasət yürütməsi Özbəkistanın Türk Şurasına tamhüquqlu üzv kimi qoşulmasına şərait yaradıb. Bununla yanaşı, Özbəkistan Avrasiya İqtisadi Birliyində tam üzvlükdən çəkinərək, əməkdaşlıq çərçivəsində qalmağa üstünlük verib. Bu isə Türk Şurasının cazibədarlığını və regional təsirini daha da artırıb [5, s.16].

Türk Şurasının fəaliyyət istiqamətləri Naxçıvan Sazişinin 2-ci maddəsində geniş şəkildə təsvir edilib. Burada siyasi, iqtisadi, ticarət, mədəniyyət, elm, texnologiya, enerji, nəqliyyat və maliyyə sahələrində əməkdaşlığın təşviq edilməsi əsas məqsədlərdən biri kimi vurğulanır. 2011-ci ildə təşkil olunan ilk zirvə toplantısında iqtisadi və ticarət əlaqələrinin inkişafı əsas prioritet kimi müəyyən edilib və Türk İş Şurası yaradılıb. 2019-cu ildə Türk Konseyi Ticarət və Sənaye Palatası təsis edilib ki, bu da Türk dövlətləri arasında iqtisadi inteqrasiyanın sürətlənməsinə xidmət edir [5, s.23].

Türk Şurasının 2009-cu ildə Naxçıvan Anlaşması ilə Türk Dünyasına qatılması öncəsi, bu qurumsal strukturların qurulmasını təmin edən bir sıra inkişaflar yaşanmışdır. Müstəqilliklərini qazandıqdan sonra, Türk Dünyası və Türkiyə arasında çox sayda zirvə toplantısı keçirilmişdir. Bu müsbət irəliləyişlərin nəticəsi olaraq, Türk Şurası təşkilatı yaranmışdır. Soyuq Müharibə illərində, iki qütblü sistemin bir nəticəsi olaraq, Türkiyə ilə Türk Dünyası arasında yaxın əlaqələr qurulmasına Sovetlər

İttifaqı maneə törətməkdə idi. Türkiyə NATO ittifaqının üzvü olarkən, Orta Asiya və Qafqazın Sovet nüfuzu altında olması Türk Dünyası üçün bir dezavantaj yaratmaqdaydı. Türkiyənin Sovetlər İttifaqı daxilində olan Türk Dünyası aktorları ilə birbaşa əlaqə qura bilməməsi, böyük bir potensialın hərəkətə keçməməsinə səbəb olurdu. Sovetlər İttifaqının dağılmasından sonra, Türk Dili danışan ölkələrin müstəqilliklərini elan etməsi ilə Türkiyə bu ölkələrlə birbaşa əlaqə qurma imkanı əldə etmişdir. Bundan əlavə, müstəqillik sonrası bu ölkələrin birlikdə həyata keçirdikləri çoxşaxəli əlaqələrin qurulması mümkün olmuşdur. Dövlət quruculuğu prosesi ilə birlikdə, Türk Dili danışan ölkələr, Türkiyənin də iştirakı ilə çoxşaxəli və çoxistiqamətli əlaqələr inkişaf etdirmişdir [1, s.476]. Bu zirvə görüşləri Türk Dünyasının inteqrasiya prosesində mühüm rol oynamış və qarşılıqlı əməkdaşlığın əsas mexanizmlərini formalaşdırmışdır.

Türk dövlətləri təşkilatının gələcəyi. Türk Dövlətləri Təşkilatının gələcəyinə dair proqnoz verərkən bəzi məqamların diqqətlə dəyərləndirilməsi vacibdir. İlk növbədə, bir çox müstəqil dövləti bir araya gətirən belə bir təşkilatda dövlətlərin maraqları qaçılmaz olaraq gündəmə gələcəkdir. Lakin bu təşkilatın əsas dayaqları olan ortaq dil və ortaq tarix kimi normativ bağlar, üzv dövlətlərin fərdi maraqlarından üstün bir ortaq maraqlar müstəvisinin formalaşmasını zəruri edir. Bununla yanaşı, geosiyasi nəzəriyyələrdə "Kalpgah" və "Rimland" bölgələri kimi xarakterizə edilən coğrafiyanın mərkəzində Türk Dünyasının yerləşməsi, Türk Dövlətləri Təşkilatına əlavə bir strateji əhəmiyyət qazandırır. Bu baxımdan təşkilatın adının dəyişdirilməsi də üzv dövlətlərin bu məsələyə verdiyi önəmi əks etdirir.

Topsakal və Zengin (2021) təşkilatın ad dəyişikliyi ilə bağlı belə bir analiz aparmışdır: "Türk Şurası adının 'Türk Dövlətləri Təşkilatı' olaraq dəyişdirilməsi, təşkilatın daxili siyasi dinamiklərini və birlik anlayışına verdiyi mənanı ortaya qoyur. Belə ki, bu ad dəyişikliyi təşkilatın üzv dövlətlərin vahid bir qurum halına gətirilməsini deyil, onların ayrı-ayrı, bərabər statusda ortaq məqsədlər ətrafında birləşməsini ifadə edir. Hər biri türk xalqına mənsub olan dövlətlərin təşkilatı kimi fəaliyyət göstərir" [1, s.485]. Türk Dövlətləri Təşkilatının gələcək mövqeyi, üzv ölkələrin həmrəyliyindən və qarşılıqlı əməkdaşlıq səviyyəsindən asılıdır. Qlobal miqyasda güc balansının sürətlə dəyişdiyi bir dövrdə, təşkilat regional sabitliyə və iqtisadi inkişafa töhfə verə bilər. Əgər üzv dövlətlər birgə iqtisadi layihələrə və təhlükəsizlik sahəsində dərin inteqrasiyaya üstünlük versələr, təşkilat beynəlxalq arenada daha da güclü mövqe tuta bilər. Bundan əlavə, mədəni və elmi əməkdaşlığın genişləndirilməsi, təşkilatın uzunmüddətli uğuru üçün önəmli rol oynayacaqdır.

"Türkdilli dövlətlərin əməkdaşlıq şurasının yaradılması haqqında" Naxçıvan sazişi. 2009-cu il oktyabrın 3-də, Naxçıvan şəhərində keçirilmiş Türkdilli ölkələrin dövlət başçılarının IX Zirvə toplantısında imzalanan "Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Yaradılması haqqında" Naxçıvan Sazişi, Türk dövlətləri arasında daha sıx əməkdaşlıq və qarşılıqlı əlaqələrin gücləndirilməsi məqsədini güdür. Bu saziş, Türk dünyasında siyasi, iqtisadi və mədəni əlaqələrin dərinləşdirilməsi üçün hüquqi baza təmin etmişdir.

Məqsəd və vəzifələr. TDT-in əsas məqsəd və vəzifələri aşağıdakılardır:

- Tərəflər arasında qarşılıqlı etimad, dostluq və xoş qonşuluğun möhkəmləndirilməsi;
- Regionda və ümumilikdə dünyada sülhün qorunması, təhlükəsizlik və etimadın gücləndirilməsi;
- Qarşılıqlı maraq doğuran xarici siyasət məsələləri, o cümlədən beynəlxalq təşkilatlar çərçivəsində və beynəlxalq forumlardakı məsələlər üzrə ümumi yanaşmanın araşdırılması;
- Beynəlxalq terrorizm, separatçılıq, ekstremizm, insan alveri, narkobiznesə qarşı mübarizədə fəaliyyətin əlaqələndirilməsi, həmçinin narkotik vasitələrin və psixotrop maddələrin qeyri-qanuni dövriyyəsinə nəzarət üzrə beynəlxalq siyasətə yardım göstərilməsi;
- Siyasi, ticari-iqtisadi, hüquq mühafizə, təbiətin mühafizəsi, mədəni, elmi-texniki, hərbi-texniki, təhsil, enerji, nəqliyyat, kredit-maliyyə və ümumi maraq kəsb edən digər sahələrdə səmərəli regional və ikitərəfli əməkdaşlığın təşviqi;
- Əmtəələrin, kapitalın, xidmət və texnologiyaların hərəkətinin asanlaşdırılması, maliyyə və bank əməliyyatlarının sadələşdirilməsi məqsədilə ticarət, investisiyalar, gömrük və tranzit prosedurlarının gələcəkdə sadələşdirilməsi üçün əlverişli şəraitin yaradılması;

- Tərəflərin xalqlarının həyat səviyyəsinin daim yüksəldilməsi və həyat şəraitinin yaxşılaşdırılması məqsədilə bərabərhüquqlu tərəfdaşlıq əsasında birgə fəaliyyət vasitəsilə regionda hərtərəfli və balanslaşdırılmış iqtisadi yüksəlişə, sosial və mədəni inkişafa səy göstərilməsi;
- Beynəlxalq hüququn ümumi qəbul olunmuş prinsip və normalarına uyğun olaraq qanunun aliliyi, səmərəli idarəçilik və əsas insan hüquq və azadlıqlarının təminatı üzrə məsələlərin müzakirəsi;
- Elm, texnika, təhsil, səhiyyə, mədəniyyət, gənclər, idman və turizm sahəsində qarşılıqlı əlaqələrin genişləndirilməsi;
- Türk xalqlarının böyük mədəni-tarixi irsinin təbliği, tanınması və yayılmasında kütləvi informasiya vasitələri arasında qarşılıqlı əlaqənin və Tərəflər arasında təmasların təşviqi;
- Qarşılıqlı əlaqənin inkişafı məqsədilə hüquqi məlumatın mübadiləsi, qarşılıqlı hüquqi yardımın göstərilməsi və hüquqi münasibətlərin müxtəlif sahələrində əməkdaşlıq üzrə məsələlərin müzakirəsi [4, maddə 2].

Struktur. Bu Sazişin məqsəd və vəzifələrinin yerinə yetirilməsi üçün aşağıdakılar təsis edilir:

- Dövlət Başçıları Şurası
- Xarici İşlər Nazirləri Şurası
- Yüksək Vəzifəli Şəxslər Komitəsi
- Türk Dövlətlərin Ağsaqqallar Şurası
- Katiblik [4, maddə 3].

Maddələrdə göstərilən məqsəd və vəzifələr əsasında Türk Dövlətləri Təşkilatının yaradılması, həmçinin bu dövlətlər arasında mədəni və iqtisadi əməkdaşlığın inkişafına xidmət edəcək. Təşkilat yalnız regional miqyasda deyil, həm də qlobal səviyyədə Türk dünyasının səsini daha güclü etməyə imkan yaradacaq və bu xalqların ortaq maraqlarına xidmət edən geniş əməkdaşlıq platformasının qurulmasına şərait yaradacaq.

Nəticə. Türk Dövlətləri Təşkilatının yaranması və inkişafı, türk xalqları arasında siyasi, iqtisadi və mədəni inteqrasiyanın möhkəmləndirilməsi baxımından əhəmiyyətli bir mərhələdir. Tarixən bir-biri ilə sıx bağlı olan türk dövlətləri, müstəqilliklərini bərpa etdikdən sonra müxtəlif əməkdaşlıq formatlarında bir araya gəlmiş, lakin məhz Türk Şurasının yaradılması ilə bu əməkdaşlıq daha sistemli çərçivəyə salınmışdır. Təşkilatın əsas məqsədləri olan ortaq mədəniyyətin qorunması, iqtisadi əməkdaşlığın gücləndirilməsi, nəqliyyat, enerji və təhlükəsizlik sahələrində inteqrasiyanın inkişaf etdirilməsi, türk dövlətlərinin qlobal siyasətdəki mövqeyini daha da gücləndirə bilər.

Türk Dövlətləri Təşkilatının gələcək uğuru, üzv dövlətlərin qarşılıqlı maraqları balanslı şəkildə qorumasından, siyasi və iqtisadi əməkdaşlığın dərinləşdirilməsindən və vahid strateji baxışın formalaşdırılmasından asılı olacaqdır. Əgər təşkilat üzvləri birgə iqtisadi layihələr və təhlükəsizlik sahəsində daha sıx əməkdaşlığa üstünlük versələr, bu birlik daha dayanıqlı və təsirli bir aktora çevrilə bilər.

Beləliklə, Türk Dövlətləri Təşkilatı yalnız türk xalqlarının ortaq tarix və mədəniyyət üzərində qurduğu bir birlik deyil, eyni zamanda regional və qlobal səviyyədə geosiyasi və iqtisadi önəm kəsb etdiyi bir platformadır. Qarşıdakı illərdə təşkilatın fəaliyyətinin daha da genişlənməsi, üzv dövlətlər arasında inteqrasiyanın güclənməsi və qlobal sistemdə strateji bir oyunçuya çevrilməsi mümkündür.

ƏDƏBİYYAT

1. Akçapa, Mevlüt. Türk Devletleri Teşkilatı'nın Tarihsel Gelişimi: Teşkilatın Dünü, Bugünü ve Yarını // Avrasya Uluslararası Araştırmalar Dergisi, vol. 11, no. 34, Mar. 2023, s.476-485.
2. Azərbaycan-Türkiyə İş Adamları Birliyi. "Azərbaycan-Türkiyə əlaqələri son 20 ildə: uğurlar və imkanlar". Bakı, 2011, s.133.
3. Heydər Əliyev və Şərq (altı cilddə). III kitab. Bakı: Çaşıoğlu, 2003, s.224.
4. Türk Dövlətləri Təşkilatının yaradılması haqqında Naxçıvan Sazişi, maddə 1-2-3.
5. Yaldız, Fırat, redaktor. 30. Yılında Türk Cumhuriyetleri: Bölgesel politika. Nobel Akademik Yayıncılık, 2021, s.15-16, 22-23.

6. Талышинский Эльвин Бахруз Оглы (2021). К истории и текущей практике сотрудничества в треугольнике Россия-Азербайджан-Турция. Современная научная мысль, (4), 169-174. doi: 10.24412/2308-264X-2021-4-169-174.

ШАХИСМАИЛ ИСМАИЛОВ
Азербайджанский Университет Языков,
Азербайджанский Университет,
Доктор философии по истории, доцент

СОЗДАНИЕ И НАПРАВЛЕНИЯ РАЗВИТИЯ ОРГАНИЗАЦИИ ТЮРКСКИХ ГОСУДАРСТВ

В данной статье рассматриваются исторические основы, процесс формирования и перспективы развития Организации тюркских государств. После распада Советского Союза усилия тюркских государств по сотрудничеству и интеграции ускорились, что привело к созданию Тюркского совета (ныне Организация тюркских государств) в 2009 году на основе Нахичеванского соглашения. В статье подчеркиваются основные цели организации, её роль в региональных и глобальных геополитических процессах, а также значение политического, экономического и культурного сотрудничества между государствами-членами. С точки зрения будущих перспектив отмечается важность балансирования взаимных интересов и реализации совместных экономических проектов для укрепления организации.

Ключевые слова: Организация тюркских государств, региональная интеграция, геополитическое сотрудничество, культурные и экономические связи, стратегическое партнерство.

SHAHISMAYIL ISMAYILOV
Azerbaijan University of Languages,
Azerbaijan University,
PhD in History, Associate Professor

THE ESTABLISHMENT AND DEVELOPMENT DIRECTIONS OF THE ORGANIZATION OF TURKIC STATES

This article examines the historical foundations, formation process, and future development perspectives of the Organization of Turkic States. After the collapse of the Soviet Union, the efforts of Turkic states towards cooperation and integration accelerated, leading to the establishment of the Turkic Council (now the Organization of Turkic States) in 2009 under the Nakhchivan Agreement. The article highlights the main objectives of the organization, its role in regional and global geopolitical processes, and the importance of political, economic, and cultural cooperation among member states. Regarding future perspectives, the article emphasizes the necessity of balancing mutual interests and implementing joint economic projects to strengthen the organization.

Keywords: organization of turkic states, regional integration, geopolitical cooperation, cultural and economic relations, strategic partnership.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 09 aprel 2025-ci il.
Məqalənin çapa qəbul olunma tarixi: 15 may 2025-ci il.
Rəyçilər: t.ü.f.d. Elvin Talışinski, t.e.d. İsmayıl Məmmədov.